# AZƏRBAYCAN RESPUBLİKASININ

# NAZİRLƏR KABİNETİ

# QƏRAR

# № 126

## Bakı şəhəri, 18 avqust 2009-cu il

**«Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları»nın təsdiq edilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın məbləğinin və Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin məbləğinin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 30 iyun tarixli 102 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. «Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları»nın təsdiq edilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın məbləğinin və Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin məbləğinin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 30 iyun tarixli 102 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 6, maddə 501) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci bənddə «300.000 (üç yüz min) manat» sözləri «500.000 (beş yüz min) manat» sözləri ilə əvəz edilsin;

1.2. 3-cü bənddə «15.000 (on beş min) manat» sözləri «50.000 (əlli min) manat» sözləri ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri A.Rasi-zadə***